TÜRKİYE AYDIN ADNAN MENDERES ÜNİVERSİTESİ TÜRK SANATI ve KÜLTÜRÜ UYGULAMA ve ARAŞTIRMA MERKEZİ (TURKEY ADU TURKISH ART and CULTURE APPLICATION and RESEARCH CENTER)
KUZEY MAKEDONYA SOSYO KÜLTÜREL ANTROPOLOJİ ENSTİTÜSÜ (N. MACEDONIA INSTITUTE FOR SOCIO-CULTURAL ANTHROPOLOGY)
TÜRKİYE SELÇUK ÜNİVERSİTESİ TÜRK EL SANATLARI ARAŞTIRMA ve UYGULAMA MERKEZİ (TURKEY SELÇUK UNIVERSITY TURKISH HANDICRAFTS RESEARCH and APPLICATION CENTER)
K. MAKEDONYA ÜSKÜP FELSEFE FAKÜLTESİ KÜLTÜRLERARASI ARAŞTIRMA VE ARAŞTIRMA MERKEZİ (N. MACEDONIA CENTER FOR INTERCULTURAL STUDIES and RESEARCH AT THE FACULTY of PHILOSOPHY)
AZERBAYCAN MİLLİ İLİMLER AKADEMİSİ MİMARLIK ve GÜZEL SANATLAR ENSTİTÜSÜ (AZERBAIJAN NATIONAL ACADEMY of SCIENCES INSTITUTE of ARCHITECTURE and ARTS)
ÖZBEKİSTAN TERMEZ DEVLET ÜNİVERSİTESİ (UZBEKISTAN TERMEZ STATE UNIVERSTY)
MOLDOVA GAGAUZYA DEVLET ÜNİVERSİTESİ (MOLDOVA GAGAUZYA STATE UNIVERSTY)
AZERBAYCAN MİLLİ İLİMLER AKADEMİSİ MİLLİ AZERBAYCAN TARİH MÜZESİ (AZERBAIJAN NATIONAL ACADEMY of SCIENCES NATIONAL AZERBAIJAN HISTORY MUSEUM)
İNGUŞYA Ç. E. AXRIEV İNGUŞ İNSANI BİLİMSEL ARAŞTIRMA ENSTİTÜSÜ (ENGUSIA Ç. E. AXRIEV INTEGRATED HUMAN SCIENTIFIC RESEARCH INSTITUTE)
ÇEÇENİSTAN RUSYA FEDERAL DEVLET BÜTÇESİ BİLİM KOMPLEKSİ ARAŞTIRMA ENSTİTÜSÜ V. I. NE. IBRAGIMOV RUSYA BİLİMLER AKADEMİSİ (KNII RAS) (CHECHNYA FEDERAL STATE BUDGETARY INSTITUTION OF SCIENCE COMPLEX RESEARCH INSTITUTE V. I. H. I. IBRAGIMOV RUSSIAN ACADEMY OF SCIENCES (KNII RAS) RUSSIAN)
KAZAKİSTAN BAŞ MİMARLIK VE İNŞAAT AKADEMİSİ MİMARLIK FAKÜLTESİ (KAZAKHSTAN CHIEF ARCHITECTURE and CONSTRUCTION ACADEMY FACULTY of ARCHITECTURE)
ARNAVUTLUK ELBASAN "ALEKSANDËR XHUVANI" ÜNİVERSİTESİ (ALBANIA UNIVERSITY of ELBASAN "ALEKSANDËR XHUVANI")
KAZAKİSTAN T. K. ZHURGENOV KAZAK ULUSAL SANAT AKADEMİSİ (T. K. ZHURGENOV KAZAKH NATIONAL ACADEMY of ARTS)
TÜRKİYE MALTEPE ÜNİVERSİTESİ (TURKEY MALTEPE UNIVERSITY)
KAZAKİSTAN ABAY KAZAK MİLLİ ÜNİVERSİTESİ (KAZAKHSTAN ABAY KAZAKN NATIONAL UNIVERSITY)
GÜRCİSTAN GORİ DEVLET EĞİTİM ÜNİVERSİTESİ (GEORGIA GORI STATE TEACHING UNIVERSITY)
RUS DEVLET SANAT ÇALIŞMALARI ENSTİTÜSÜ (RUSSIAN STATE INSTITUTE OF ART STUDIES)
TÜRKİYE İPEK YOLU STRATEJİK ARAŞTIRMALAR MERKEZİ (TURKEY İPEK YOLU STRATEGIC RESEARCH CENTER)
KAFKASYA ÜNİVERSİTELER BİRLİĞİ (CAUCASUS UNIVERSITY ASSOCIATION)
TÜRK OCAKLARI AYDIN ŞUBESİ (TURKISH HEARTHS AYDIN BRANCH)
AYDIN KÜLTÜR TURİZM DERNEĞİ (AYDIN CULTURE TOURISM ASSOCIATION)
KUŞADASI KÜLTÜREL ve TARİHİ MİRASI KORUMA DERNEĞİ (KUŞADASI CULTURAL and HISTORIC HERITAGE CONSERVATION ASSOCIATION)

# 2. ULUSLARARASI BALKANLAR, ANADOLU, KAFKASYA ve TÜRKİSTAN COĞRAFYASI SANAT, KÜLTÜR, TARİH ve FOLKLOR KONGRESİ/SANAT ETKİNLİKLERİ

# II. INTERNATIONAL BALKANS, ANATOLIA, CAUCASIA and TURKISTAN (MIDDLE ASIA) GEOGRAPHY ART, CULTURE, HISTORY and FOLKLORE CONGRESS / ART ACTIVITY

**"Prof. Dr. Ali RECEBLİ Armağanı (In Honour of Prof. Dr. Ali RECEBLİ)"**

**Editör: Dr. Ahmet AYTAÇ**

**09-12 Mayıs/May 2022, Aydın-TÜRKİYE/TURKEY**

# XIII ƏSRDƏ KONYA NUMİSMATİKASI VƏ FƏLSƏFƏSİNİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ

# CHARACTERİSTİC ASPECTS OF 13TH CENTURY NUMİSMATİCS AND PHİLOSOPHY OF KONYA

**Ələddin MƏLİKOV***
**Aygün MƏMMƏDOVA****

The article highlights Turkish numismatic, symbols and philosophical thought on the basis of Konya dirhams, minted in the second half of the 13th century, preserved in the Numismatical Fund of the National Museum of History of Azerbaijan of the National Academy of Sciences of Azerbaijan and the thoughts of Sheykh Sadr al-Din Muhammad al-Qunawi (1210 - 1274).

There are also Konya silver dirhams, along with silver coins, minted in the name of Seljuk rulers, found in various regions of Azerbaijan (Baku, Agdere, Tovuz, Zagatala, Shamakhi etc). In the appropriate period, the names of the local rulers (Shirvanshah-Kesranids) and the names of the Abbasid caliphs were engraved on the copper coins minted in Azerbaijan (Baku, Shamakhi, Darband, etc.). The need of the Caucasus for silver and gold coins in national trade was paid with the coins issued in Turkey, Iraq and other states.

The article highlights inscriptions about the glorious titles of the ruler (amir al-muminin, imam al-muazzam, sultan) on silver dirhams, gold dinars minted in Konya during the reign of Roman Seljuks (II Kaykhusraw- 1237 – 1246; II Keykaus = 1245 – 1249; 1257 – 1262; IV Qilij Arslan – 1248-1249; 1262 – 1266), as well as date of minting and scale of the coins and the struggle with Mongols and Golden Horde rulers in money savings based on the studies that epoch.

The article gives information about the life of Sheykh Sadr al-Din Muhammad al-Qunawi (1210 - 1274) and the understandings in his wide philosophical system (God, the value of man, metaphysics, etc.) and about his scientific environment (Jalal al-Din Rumi, Ahi Evren, Hajı Bektash Veli). The father of this scholar became a teacher of both himself and Izz ad –Din Kayka'us II. The works and views of this scholar had an impact on Anatolia and its surroundings, as well as on the Caucasus.

The written sources and numismatic facts of the period prove the existence of the philosophy in the all Turkic world in the Middle Ages.

## GİRİŞ

Məqalədə Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan XIII asrım II yarısına ait Konya dirhəmləri və Şeyx Sədrəddin Muhamməd əl-Konəvinin (1210 - 1274) düşüncələri əsasında türk numizmatikası, simvolları və fəlsəfi düşüncəsinə nəzər salınmışdır.
Azərbaycanın müxtəlif məkanlarında (Bakı, Ağdərə, Tovuz, Zaqatala, Şamaxı və d.) aşkarlanmış Selçuqlu hökmdarları adından zərb edilmiş gümüş sikkələr sırasında Konya gümüş dirhəmləri də vardır.

Uyğun dövrdə Azərbaycan zərbxanalarında (Bakı, Şamaxı, Dərbənd və d.) zərb edilen mis sikkələrə (dirhəm ve felslərə) yerli hökmdarların (Şirvanşah-Kesraniler) adları ilə birgə Abbasi xəlifələrinin də adları zərb edilirdi. Qafqazda gümüş ve qızıl sikkələrə olan ihtiyac Türkiyə, İraq ve d. dövlətlərdə istehsal edilən sikkələrlə ödenirdi.

Məqalədə Roma Səlcuqluları (II Keyxosrov- hicri 634 – 644 - 1237 – 1246; II Keykavus – 643 – 647 = 1245 – 1249; 655 – 660 = 1257 – 1262; IV Qılıc Arslan – 646 – 647 = 1248-1249; 660 - 664 = 1262 – 1266) dövründe Konyada zərb edilen gümüş dirhəmler, qızıl dinarlar, mis felslər üzərində adları olan hökmdarın şanlı dərəcələri haqqında (əmir əl-möminin, əzəmətli imam, sultan) yazılar, zərb tarixi, çəkisi barədə məlumat verilmiş, müasir tədqiqatlara istinad edilərək moğollar ve Altın Orda hökmdarları ilə mübarizənin pul təsərrüfatındakı əksi göstərilmişdir.

Məqalədə həm də Şeyx Sədrəddin Muhamməd əl-Konəvinin (1210 - 1274) həyatı və geniş fəlsəfi sisteminde yer alan anlayışlar (Allah, insanın dəyəri, metafizika və d.), onun yetişdiyi irfani elm (Cəlaləddin Rumi, Əxi Evrən, Hacı Bektaş Vəli və d.) mühiti haqqında məlumat verilmişdir. Bu alimin atası həm özünün, həm də hökmdar II İzzəddin Keykavusun muəllimi olmuştur. Bu alimin əsərləri ve görüşləri nəinki Anadolu və ətrafı, həmçinin Qafqaza təsir etmişdir.

Dövrün yazılı qaynaqları ve numizmatik faktları ümumtürk dünyasında Mədhiyyəçilik fəlsəfəsinin mövcutluğunu təsdiq edir.

**Dövrün pul təsərrüfatı**

Azərbaycan Respublikasının müxtəlif məkanlarında Roma Səlcuqluları (1092 - 1308) hökmdarları - II Keyxosrov (hicri 634 – 644 - 1237 – 1246), II Keykavus (hicri 643 – 647 = 1245 – 1249; hicri 655 – 660 = 1257 –

* Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutu, fəlsəfə üzrə elmlər doktoru, dosent (Bakı, Azərbaycan).
** Azərbaycan Milli Elmlər Akademiyası, Milli Azərbaycan Tarixi Muzeyi, tarix üzrə fəlsəfə doktoru (Bakı, Azərbaycan).

1262) və IV Qılıc Arslan (hicri 646 – 647 = 1248-1249; hicri 660 - 664 = 1262 – 1266) dövrünə aid Konya gümüş dirhəmləri aşkarlanıb.

Dağlıq Qarabağın Ağdərə rayonunun Dovşanlı və Bazarkənd kəndlərinin ərazisindəki meşədə (43 ədəd sikkə; Konya dirhəmi, hicri 644 = 1246 - 1247), Bakı şəhərində (60 ədəd sikkə; Konya dirhəmi hicri 646 = 1248-1249) və Tovuz rayonunda (55 ədəd sikkə; Konya dirhəmləri hicri 647 = 1249-1250, hicri 649 = 1251-1252) aşkarlanmış sikkə dəfinələrində belə sikkələrə rast gəlinib. Qeyd edilən hökmdarlara aid 23 ədəd gümüş sikkə 1934-cü ildə Zaqatala rayonunda tapılıb.

Ağdərə dəfinəsində Səlcuqlu hökmdarları I Keyqubad (1219 – 1236; Kayseri, hicri 617 = 1220-1221), II Keyxosrov və II Keykavus dövrünün Konya dirhəmləri Hülakü (Elxani) hökmdarları - Abaqa (1266 - 1282), Arqunun (1284 - 1292) Təbrizdə (hicri 632 = 1234 - 1235 və 683 = 1284 - 1285), Bağdadda (hicri 684 – 686 = 1285 - 1286), Keyxatunun (1291 - 1295) hicri 692 = 1292 – 1293 və numizmatikada “xristian-hülakü” qrupu olaraq bilinən dirhəmləri ilə birgə tapılıb.

Tovuz rayonunda tapılmış sikkə dəfinəsində isə Səlcuqlu (II Keykavus), Hülakü (Abaqa, Əhməd, Arqun) və Gürcüstan Baqratiləri (Vaxtanqın Tiflisdə zərb edilən sikkələri, üzərinə Qazan Mahmudun adı həkk edilib - 14 ədəd) dövrünün gümüş sikkələri vardır.

Məhz belə dəfinələr XIII əsrdə Azərbaycanın nəinki Cənubi Qafqaz, həm də Türkiyə, İran, İraqla olan ticarət əlaqələrini təsdiq edir.

T.ü.e.d., professor Əli Rəcəblinin qeydlərinə əsasən “Cənubi Qafqazda Səlcuqlu və Asiya əmirlərinin adından zərb edilmiş 50-dən artıq sikkə dəfinələri tapılmışdır. Səlcuqlular dövləti bu dövrdə çiçəklənmə mərhələsini yaşayırdı” (Rəcəbli Ə. 1997: 88).

Səlcuqlu dirhəmlərinin Azərbaycana axını XIII əsrin 30-cu illərində başlamış, 40-50-ci illərdə artmış, 90-cı illərdə isə azalmışdır. Bunların sırasında I Keyxosrov (1205 - 1211) ilə III Məsudun (1300) hakimiyyəti dövründə 17 zərbxanada (Ərzincan, Antalya, Ərzurum, Gümüşbazar, Kayseri, Kastamonu, Konya, Samsun, Sarıkavak, Sivas, Sinop, Sardis) istehsal edilmiş sikkələr vardır. Belə tapıntılarda I Keyqubad (1219 – 1236) və oğulluğu II Keyxosrov (1236 - 1246) adından zərb edilən gümüş dirhəmlər üstünlük təşkil edir (Rəcəbli Ə. 1997: 88).

Dövrün numizmatik faktlarına əsasən **II Keyxosrov (hicri 634 – 644 - 1237 – 1246)** “ğiyasəddin” (dinin yayılmasına yardımçı olan) tituluna malik olmuşdur. Gürcüstan çariçası Tamara (Gürcühatun) ilə evli olan bu hökmdarın sikkələrində yazılarla bərabər canlı varlıqların təsviri (şir və Günəş) həkk edilmişdir. T.ü.e.d., professor Əli Rəcəbli yazır ki, bu hökmdar şir təsviri ilə özünü, Günəşlə isə həyat yoldaşını ifadə etmişdir (Rəcəbli Ə. 1997, s. 88).

Bu hökmdar dövründə Konya və Sivasda 4,3 - 4,4 qram çəkili müxtəlif görünüşlü möhürlərlə, yazılar olan qızıl dinarlar zərb edilmişdir.

Hicri 638 = 1240-1241-ci ilin nadir Konya dinarlarında iki şir və Günəş təsviri vardır (Islamic world// Seljuq of Rum//www.zeno.ru).

Hicri 634 – 638 = 1236 – 1240-cı illərdə II Keyxosrov adından zərb edilən Konya, Amid və Sivas 2,9 q çəkili təsvirsiz, yalnız xırda ulduzlar və yazılar olan gümüş dirhəmlərinin bir qrupunda həm də Abbasi xəlifəsi əl-Mustansir billahın adı vardır.

Hicri 642 – 644 = 1244 – 1246-cı illərin Konya, Sivas dirhəmlərinə “zil Allah fil-ələm” ifadələri həkk edilmişdir. Bu hökmdar dövründə Sivasda həm də yarımdirhəmlər (0,8 q) də zərb edilmişdir.

Xüsusi qeyd etməliyik ki, bu hökmdar dövründə şir və Günəş motivli Konya və Sivas dirhəmlərinin əksəriyyətinə şir sağa, hicri 640 = 1242- 1243-cü ilin nadir Sivas dirhəmlərinə isə sola yönəlmiş olaraq təsvir edilmişdir (2,9 q).

Bu hökmdar dövründə müxtəlif görünüşlü mis felslər zərb edilmişdir.

1) Hicri 638 – 641 = 1240 – 1244-cü illərin Konya və Sivas mis felslərini sağa yönəlmiş şir və Günəş (1,68 - 3,07 q) təsviri həkk edilmişdir.

2) yalnız yazılar olan Ankara, Konya, Sivas, Dar əl-cəlal (Ərzurum) mis felsləri 2 tipdədir (3,2 - 3,7 q):

a. II Keyxosrov və Abbasi xəlifələri - əl-Mustənsir (1226 - 1242) və oğlu əl-Mustasimin (1242 - 1258) adları ilə;

b. II Keyxosrovun adı ilə.

Dövrün sikkələrinə əsasən Səlcuqlu hökmdarı **II Keykavusun** (643 – 647 = 1245 – 1249; 655 – 660 = 1257 – 1262) titulu “izzəddin” (dinin izzəti) idi. Numizmatik faktlara əsasən bu hökmdar iki dəfə hakimiyyətdə olmuşdur.

Onun birinci hakimiyyəti dövründə Konyada yalnız yazılar olan qızıl dinarlar (4 q), gümüş dirhəmlər (2 q), yarımdirhəmlər (1,33 q), mis felslər (3,2 q) zərb edilmişdir. Bu hökmdarın ikinci hakimiyyəti dövrünə aid mis felslərə taxtda əyləşmiş taclı hökmdarı anfas təsviri həkk edilmişdir (4,9 q).

“Rüknəddin” (dinin təməli) titullu **IV Qılıc Arslan** numizmatik faktlara görə iki dəfə - hicri 646 – 647 = 1248-1250 və hicri 660 - 664 = 1261 – 1266-cı illərdə hakimiyyətdə olmuşdur. Onun və Abbasi xəlifəsi əl-Müstəsimin adları olan Sivas gümüş dirhəmlərinə sağa yönəlmiş, ox atan atlı təsviri həkk edilmişdir. Dövrün mis felslərində isə yalnız yazılar vardır.

Hicri 652 = 1254-1255-ci ilin Kayseri dirhəmlərinə həm bu hökmdarın, həm də qardaşının adları həkk edilibdir. Üzərində "mədinət Qunyə" (Konya şəhəri) yazıları olan qızıl dinarlar IV Qılıc Arslanın ikinci hakimiyyəti dövrünə aiddir.

Bu hökmdar dövründə yalnız Konya və Sivasda deyil, həm də Amid, Dəvəli, Ərzincan, Gümüşbazar, Kayseri, Luluyə, Mədən, Mədənşəhr, Malatya, Sarus, Sinop, Sivasda sikkə zərbi icra edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin Xüsusi Fondunda hicri 652 = 1254-1255-ci ildə Konyada zərb edilmiş qızıl dinar (3,88 q) qorunur.
Dövrün beynəlxalq ticarətində istifadə olunan belə qızıl dinarın üst tərəfinə Səlcuqlu hökmdarı IV Qılıc Arslanın, Abbasi xəlifəsi əl-Mustəsim billahın (1242 - 1258) adları, zərb ili və yeri həkk edilmişdir (Rəcəbli, 2020: 56).

1249-1257-ci illərin Konya, Kayseri, Luluyə, Malatya, Sivas sikkələrinə məqalədə qeyd etdiyimiz hər üç hökmdarın adları zərb edilmişdir.
Numizmatik faktlara əsasən, IV Qılıc Arslanın vəfatından sonra Səlcuqlu dövlətində oğlu Ğiyasəddin III Keyxosrov (1266-1284), daha sonralar isə Əlaəddin Siyavuş (1277), Ğiyasəddin II Məsud (1280 – 1284; 1284 - 1296; 1300-1302), Əlaəddin III Keyqubad (1298 - 1302) və III Məsud (1300) hakimiyyətdə olublar.

**Azərbaycanda pul təsərrüfatı**

Məqalədə araşdırmaya cəlb etdiyimiz Səlcuqlu hökmdarlarının hakimiyyəti dövrü Azərbaycanda şirvanşah-Kəsranilər – III Fəriburz ibn Gərşəsb (1225 - 1244), II Əhsitan ibn Fəriburzun (1244 - 1260) hakimiyyəti dövrü ilə eyni mərhələyə təsadüf edir.

Üzərində "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir" sözləri olan **III Fəriburz ibn Gərşəsb adından** (1225 - 1244) zərb edilən 3 – 4 q qram çəkili, kənarları qeyri-mütənasib formalı mis felslərin bəzilərinə Abbasi xəlifəsi - əl-Mustənsir billah, digərlərinə isə əl-Mustəsim billahın adları zərb edilib. Belə sikkələrə əsasən şirvanşah III Fəriburz "dünya və dinin əzəmətli məliki" titullarına sahib olmuşdur.

T.ü.e.d., professor Əli Rəcəblinin də məlumatlarına əsasən "monqol basqınları ilə qarşılaşan I Gərşəsb (1205 - 1225) və III Fəriburz (1225 - 1244) dönəmində Şirvanın və şirvanşahların ciddi məhrumiyyətlərlə üzləşməsinə rəğmən, onların sikkə hüququnun məhdudlaşmasını göstərən faktlara rast gəlinmir" (Rəcəbli Ə., 2015, 53). Beləliklə, Şirvanın tam işğalı və Elxanilər dövlətinin yaranması ilə Şirvanşahlar dövləti müəyyən iqtisadi çətinliklər yaşasa da, III Fəriburz və II Əhsitan (1244 - 1260) sikkə hüququnu icra etmişlər (Rəcəbli Ə., 2015, 54).

Çingizilərin vassalı olan **II Əhsitan ibn Fəriburz** (1244 - 1260) dövrünün 3 q çəkili, üzərində "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir" sözləri olan dairəvi mis felslərinə həm özünün, həm də Çingizi hökmdarı Munke kaan (1251 - 1259) ilə Abbasi xəlifəsi əl-Mustəsim billahın adları zərb edilib. Belə sikkələrin bəzilərində üçdişli yaba təsviri də vardır. Müvafiq dövrün sikkələrində zərb ili və zərbxana olmadığından yazılı mənbələrə müraciət etmək lazım gəlir. Dövrün sikkələrinin hərbi strateji və iqtisadi baxımdan önəmli şəhərləri olan Bakı, Şamaxı, Dərbənddə zərb edildiyi söylənə bilər.

1260-cı ildə Elxani hökmdarı Hülakü xanın əmri ilə II Əhsitan qətlə yetirildikdən sonra Şirvanşahların yarım əsrlik sikkə zərbi müəyyən müddətlik dayandırılmışdır.
Son illərin numizmatik araşdırmalarına əsasən hicri 745 – 774 = 1344 – 1373-cü illərdə Şamaxı, Şabran, Bakıda zərb edilmiş ikili dirhəmləri (2,11 q) müəyyən edilmişdir (İslamic world // Shirvanshahs, 305 - 784//www.zeno.ru).

200 ildən sonra çox davam edən və bütün Ön Asiyada hökm sürən gümüş sikkə çatışmazlığı Çingizilər imperiyasının meydana gəlməsi ilə sona çatmışdır.

**Şeyx Sədrəddin Muhamməd əl-Konəvinin həyatı, müəllimləri ve fəlsəfi sistemi**

XIII əsrdə Anadolu səlcuqlularının dini, təsəvvüfi, fəlsəfi və sosial-ictimai həyatında iz qoyan Şeyx Sədrəddin Muhamməd əl-Konəvi (1210 - 1274) Muhyiddin əl-Ərəbi və Əvhaduddin Kermaninin tələbəsi olmuşdur. Bu alim Malatyada dünyaya gəlmiş və Malatya ilə bərabər Şam, Misir və Ərəbistanın müxtəlif şəhərlərində təhsil alaraq mənəvi dünyasını zənginləşdirmişdir. O, II İzzəddin Keykavusun (1246 - 1262) hakimiyyəti dövründə Konyaya gəlmiş və öz elmi ilə ictimaiyyəti maarifləndirmişdir [Sadreddin Konevi: 2008, 6; Ceran A.Ş., 1995: 11].

Sədrəddin Muhamməd əl-Konəvinin atası Məcduddin İshaq öz dövrünün tanınmış alimləri - şeyxlərin rəhbəri Şihabuddin Əbu Həfs Ömər əs-Sührəvərdi, Evhaduddin Həmid əl-Kermani, Əbu Cəfər Muhəmməd əl-Bərzai kimi diplomatlarla birgə Abbasi xəlifəsi ən-Nasir Linidillahın sarayında vəzifəli şəxs olaraq çalışmışdır. Hicri 654 = 1258-ci ildə Hülakü xan Bağdadı zəbt edənədək, yəni Abbasilər xilafətinin süqutunadək Anadolu türkmən dərvişləri və şeyxlərinin ərəb xəlifələrinin yanında xidmət etməsi davam etmişdir.

II Qılıc Arslan vəfat etdikdən sonra oğlu I Ğiyasəddin Keyxosrov Konyada Selcuqlu sultanı oldu. Şeyxülislamlıq məqamında çalışan Məcduddin İshaq bu sultanın maddi və mənəvi müəllimi idi.

I Ğiyasəddin Keyxosrov və qardaşları hər biri yarımmüstəqil məlik olaraq tabeliyində olan əraziləri idarə edirdilər [Ceran A.Ş., 1995: 2 - 3]. 1196-cı ildə o, böyük qardaşı Süleyman şahla olan mübarizədə uduzdu. O, oğulları I İzzəddin Keykavus və I Əlaəddin Keyqubad ilə birlikdə Bizansa gedərək 1205-ci ilə qədər (9 il) qürbət həyatı yaşadı.

Süleyman şah dünyasını dəyişdikdən sonra I Ğiyasəddin Keyxosrov taxta sahib oldu və o, qürbətdə ikən Şam şəhərində yaşayan müəllimi Məcduddin İshaqa məktub ünvanlayaraq onu Konyaya dəvət etdi. Sultanın dəvətini qəbul edən Məcduddin Konyaya gəldi və sultanın oğlu I İzzəddin Keykavusun müəllimi və rəhbəri oldu.

1211-ci ildə I Ğiyasəddin Keyxosrovun şəhadətindən sonra I İzzəddin Keykavus taxta keçdi. O, öz sultanlığını tanıtdırmaq üçün atasının və özünün müəllimi olan Məcduddin İshaqı Bağdada elçi olaraq göndərdi. Xəlifə Nasir lidinillah Məcduddini hörmətlə qarşıladı və onu qiymətli hədiyyələrlə Konyaya yola saldı.

I İzzəddin Keykavus ilə qardaşı I Əlaəddin Keyqubad ilə hakimiyyət uğrunda mübarizə edirdirlər. Şeyx Məcduddin İshaqın məsləhətini dinləyən sultan I İzzəddin qardaşını qətlə yetirmək fikrindən daşınmışdı [Ceran A.Ş., 1995: 9]. Bu sultan daim şeyxə dərin hörmət bəsləyirdi.

Məcduddin İshaq 1221-ci ildə Malatyada dünyasını dəyişmişdir.

İslam aləmində mühüm fəlsəfi cərəyanların baniləri olan, əsərləri ilə töhfə verən alimlərdən biri olan Mühyiddin əl-Ərəbidən bəhrələnən Şeyx Sədrəddin Muhamməd əl-Konəvi Konyadakı xanəgahda müəlliminin təlimini İslam aləminə yaymağa çalışırdı.

Əl-Konəvinin dərslərindən feyz alan tələbələri - Fəxruddin İraqi (? - 1289), Muəyyiduddin Mahmud əl-Cəndi (? - 1291), Saduddin Fərqani (? - 1299) Anadoluda onun düşüncələrini yayırdılar. Daha sonrakı dövrdə Davudi Kayseri (? - 1350), Qutbuddin İzniki (? - 1480), Yazıcızade Mehmet Efendi (? - 1481) və d. onun təlimini davam etdirmişdilər. Şeyh Sadreddin Muhammed el-Konevi həm də qızı Fatma Bacı və Əminə xatunun təhsili və irşad fəsliyyətinə diqqət yetirirdi. Beləliklə, XIV əsrdən başlayaraq əl-Ərəbinin təsəvvüfi görüşləri sayəsində vəhdət, vücud, kamil insan, qeyb və d. fəlsəfi təlimlər formalaşmışdır.

Şeyx Sədrəddin Muhamməd əl-Konəvinin müəllimlərindən biri də Şeyx Evhaduddin Kermani (1164 - 1238) idi. O, Kermandakı Səlcuqlu sultanı II Turanşahın oğlu idi və əvvəldə də qeyd etdiymiz kimi əl-Konəvinin dəvəti ilə Bağdaddan Konyaya gəlmişdi. O, Kayseri və Malatyada fəaliyyət göstərərək el-Konəvinin təhsili ilə məşğul olurdu. Kermani öz fəlsəfi fikirlərini yaymaq üçün Anadolu, Azərbaycan, İran, İraq, Suriya, Misir və Hicazın bir sıra şəhərlərinə gəlmiş və türk dilində etdiyi söhbətlərlə Anadolu türkmənləri arasında etibar qazanmışdı.

Şeyx Sədrəddin Muhammed əl-Konəvinin mənəvi aləminə həm də Cəmaluddin əl-Vasiti və Mühyiddin Dəməşqi təsir etmişdilər [Ceran A.Ş. 1995: 29-30]. O, təsəvvüfi baxışlarında İmam Qəzəli və İbnul Ərəbinin, inanc məsələlərində isə Əbu Hənifə və İmam Maturidini təsirindən bəhrələnmişdir.

Onun təqib etdiyi metod - mükaşifə yoludur (könül paklığı ilə ilahi sirrləri kəşf etmə). Allah fəlsəfəsini öndə bilən bu alim rasional vəhdəti-vücud anlayışının tərəfdarı olmuşdur. O vurğulayırdı ki, ilahi gerçəklər yalnız kəşf, yəni dəruni, təmiz bir yaşayış sonunda qazanılır.

Konəvi fəlsəfəsinin əsasını Allahı tanımaq məsələsi təşkil edir. O, Allahın mahiyyəti ilə şeylərin mahiyyətini fərqləndirir. Alim yazır ki, varlıq sonsuz bir gizlilikdir, aləm də bu gizlilikdən meydana gəlmişdir.

Aləmlərin açılışını Konəvi beş mərtəbə üzrə təsnif edir:

Qeyb;

İşıqlar;

İzafi qeyb;

Şəhadət və hiss.

İnsan və onun dəyəri.

Alimin fəlsəfəsində ilahi rəhmətin əsəri olan dünya – Böyük aləm, onun kiçik misalı olan insan isə - Kiçik aləmdir. İnsan Allah tərəfindən sevgiylə yaradılmış və kainatın yaradılmasında gerçək bir qayədir.

Konəvi qeyd edirdi ki, yuxu kiçik, cismani ölüm isə böyük ölümdür. İnsan zikrlə ilahi feyzə çata bilər və o, həm də vəkillik xüsusiyyətinə də malikdir.

Alimin kitabxanasında müəllimi İbn Ərəbinin və digər alimlərin çoxsaylı qiymətli əsərləri saxlanılırdı. Onun tələbələri sırasında dövlət məmurları və alimlər təlimini qoruyaraq davam etdirmişlər.

"Kamil insan" anlayışını təqdim edən alimin həm təfsir, həm də hədis sahəsində olan 25-ə yaxın əsəri hazırda Türkiyə Cumhuriyyətinin bir sıra şəhərlərində (Konya, Kayseri, İsparta, Kütahya, Bursa, Nevşehir, Manisa, İstanbul və s.) olan kitabxanalarda qorunur.

Alimin "Şərhu əhədisu nəbəviyyə" və "Şərhu əsmaullah əl-husnə" adlı məşhur əsərlərində sufilik təriqətinin müxtəlif mövzuları araşdırılmışdır (Рахнулла Е. 2021: 44).

Abidə şəxsiyyətlər və onların mənəvi gücü milləti yaşadan başlıca qüvvədir. Elm, əxlaq, mədəniyyəti ilə dünyaya töhfələr verən belə şəxsiyyətlərin adları tarixə qızıl hərflərlə yazılmışdır.

XIII əsrdə Anadolunun sosial və ictimai-mədəni həyatına təsir edən sufilik sultanları sırasında Şeyx Sədruddin Muhammed Konəvi ulu öndərlərdən biridir.

**Nəticə.** XIII əsrin I rübündən etibarən Şirvanın pul dövriyyəsində Səlcuqluların, Elxanilərin, daha sonra isə Cəlairilərin (Gəştasbi, Şirvan, Şabran, Bakı, Şamaxı və d. şəhərlərdə zərb edilən) gümüş dirhəmləri və mis felsləri iştirak etmişdir.

Mövcud sikkələrə əsasən Səlcuqlu hökmdarları - II Keyxosrov, II Keykavus və IV Qılıc Arslan yuxarıda qeyd etdiyimiz dini titullarla yanaşı, həm də "əzəmətli sultan" rütbəsinə malik olmuşlar. Dövrün sikkələrinə bəzi istisnalar olmaqla Səlcuqlu hökmdarı ilə yanaşı Abbasi xəlifələrinin adı da həkk edilirdi. Belə sikkələrə hicri tarixə müvafiq zərb tarixi (rəqəmlərlə deyil, yazı ilə), "Rəhimli və mərhəmətli Allahın adı ilə", "Allahdan başqa ilah yoxdur, Muhəmməd onun elçisidir", "Allah vahiddir, şəriki yoxdur" və d. ifadələr zərb edilmişdir.

Dövrün siyasi, iqtisadi və mədəni mərkəzi olan Konya şəhəri Səlcuqlu səltənətinin paytaxtı olaraq önəmli mövqeyə malik idi. Bu şəhərdə və Sivasda Səlcuqlu dövlətinin digər şəhər-zərbxanalarından fərqli olaraq daha çox sikkə zərb edilirdi. Sivas, Ərzincan və Ərzurumdan keçərək cənub-şərq və şimal-şərqə ayrılan karvan ticarət yolu vasitəsilə Azərbaycanla yalnız iqtisadi deyil, həm də mədəni əlaqələr saxlanılırdı.

Belə əlaqələrdə müstəsna xidməti olmuş şəxslərdən biri də Şeyx Sədrəddin Muhammed el-Konəvi idi. Onun dünyagörüşü və fəlsəfi metodu yalnız Anadolu və Azərbaycana deyil, həm də İran, İraq, Suriya, Misir və Hicaza təsir etmişdi.

**Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan Konya gümüş dirhəmləri**



Şəkil 1. NF 14403. Səlcuqlular. II Keyxosrov (1237 – 1246). Konya, hicri 639 = 1241-1242, gümüş dirhəm, 3 q



Şəkil 2. NF 14405. Səlcuqlular. II Keyxosrov - 1237 – 1246; II Keykavus 1245 – 1249; 1257 – 1262; IV Qılıc Arslan - 1248-1249; 1262 – 1266). Konya, hicri 650 = 1252-1253 , gümüş dirhəm, 2,7 q



Şəkil 3. NF 14405. Səlcuqlular. II Keyxosrov- 1237 – 1246;  II Keykavus 1245 – 1249; 1257 – 1262; IV Qılıc Arslan - 1248-1249; 1262 – 1266. Konya, hicri 652 = 1254-1255, gümüş dirhəm, 2,4 q

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Ceran A.Ş. (1995) Büyük İslam alimi ve mutasavvifi Şeyh Sadruddin Muhammed el-Konevi (K.S.). Konya: Damla Ofset.
2. Rəcəbli Ə.M. (2015). Şirvanşahlar dövlətində sikkə zərbi (VIII – XVI yüzillər). Bakı: Elm və təhsil.
3. Rəcəbli Ə.M., Rüstəmbəyova A. (2020). Orta əsr müsəlman dövlətlərinin qızıl sikkələri. Bakı: Elm və təhsil.
4. Sadreddin Konevi (2008). El-Fukuk fi-esrar-ı müstenidat-i hikemi'l fusus. Fususü'l hikem'in Sırları. Tercüme: Ekrem Demirli. İstanbul: İz Yayıncılık.
5. Sikkə dəfinələrinin izi ilə (2019). Tərtib edən: Əli Rəcəbli. Bakı: Ecoprint.
6. Раджабли А.М. (1997). Нумизматика Азербайджана. Баку: Элм ва хаят.
7. Рахнулла Е.В. (2021). Религиозно-философские взгляды Садреддина Коневи (на основе азербайджанских рукописей) // История, политология, социология, философия, философия, теорические и практические аспекты. Сборник статей. Новосибирск: с. 43 - 49
8. Islamic world// Seljuq of Rum//www.zeno.ru